Biz fəxr edirik ki, Azərbaycanda savadlılıq təxminən 100 faizdir. Bu, çox böyük göstəricidir. Elə etməliyik ki, bütün uşaqlar savadlı, bilikli olsunlar, gələcəkdə özləri üçün gözəl həyat qura bilsinlər, dövlətimiz üçün dəyərli vətəndaşlar olsunlar.

**İlham ƏLİYEV**



# Texniki yaradıcılığa həvəs göstərən istedadlı şagirdlər

Bakı şəhəri 175 nömrəli tam orta məktəbdə istedadlı şagirdlər çoxdur. Onların bir qismi texniki yaradıcılığa həvəs göstərən, fizikaya aid biliklərindən istifadə edərək müxtəlif modellər, qurğular hazırlayan məktəblilərdir. Şagirdlərin hazırladıqları müxtəlif mini qurğular bu yaxınlarda məktəbdə keçirilən "Fizika və lirika" gecəsində sərgilənib və tədbir iştirakçılarının böyük marağına səbəb olub. Onların bəziləri ilə oxucularımızı tanış edirik:



**Yəhya Cəfərov**
**(VII "ç" sinif şagirdi)**

Yəhyanın ən çox sevdiyi fənn fizikadır. Gələcəkdə dizayner - mühəndis olmağı arzu edir. Bunun üçün də müxtəlif qurğular düzəldir. Müsabiqələrdə iştirak etməyi planlaşdırır.





**Dilbər Ələkbərova**
**(VII "a" sinif şagirdi)**

Dilbər səyahəti, musiqini sevir. Fizika dərsinə olan marağı ona ev şəraitində sərinkeş düzəltməyə həvəs yaradıb. Bu kimi işlərini təkmilləşdirməyi düşünən Dilbər gələcəkdə dizayner olmaq arzusundadır.

**Nərgiz Məcidova**
**(X "a" sinif şagirdi)**

Nərgiz ekoloq olmaq arzusundadır. İlk dəfə meyvə saatı düzəldib. Fizika fənninə böyük marağı onu radioqəbuledici yığmağa həvəsləndirib. Öz işindən zövq alaraq gələcəkdə daha mürəkkəb qurğular düzəltməyi planlaşdırır.



